No: 02 2026
https://doi.org/10.64400/ea26-02-18
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# AZƏRBAYCAN RESPUBLİKASINDA SON ONİLLİYİN ƏSAS SOSİAL İSLAHATLARI

**Ülviyə CÜMŞÜDLÜ**
Azərbaycan Turizm və Menecment Universiteti, Bakı, Azərbaycan
**Yazışılan müəllif:* ulviyya.cumshudlu@atmu.edu.az

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* 06.06.2026
*Nəşr edilmə tarixi:* 25.06.2026

**AÇAR SÖZLƏR:**
sosial, təminat, inkişaf, islahat, cəmiyyət, rifah

**XÜLASƏ**
Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra iqtisadi və sosial sahələrdə inkişafa nail olmaq üçün əhəmiyyətli islahatlar aparmışdır. Təhsil, səhiyyə, sosial təminat və sosial yardım istiqamətlərində aparılan islahatlar daha da gücləndirilmiş, əhalinin sosial rifahının artırılması istiqamətində sosial qurumların iş fəaliyyətinə yenidən baxılmışdır. Mövzunun aktuallığı səbəbindən tədqiqatın aparılması əhəmiyyətlidir və məqalənin əsas məqsədi, son onillikdə sosial inkişaf sahəsində baş verən islahatların ətraflı tədqiqidir. Təsadüfi deyil ki, sosial inkişaf üzrə statistik göstəricilər əsasında aparılmış müqayisələr Azərbaycanın MDB ölkələri arasında ilk sıralarda olduğunu sübut edir. Buna əsas səbəb kimi qəbul edilmiş müxtəlif sosial islahatlar, dövlət proqramları, həmçinin mövcud və yeni əsası qoyulmuş qurumlar və onların fəaliyyətlərini göstərmək olar. Məqalədə müxtəlif rəsmi qurumların hesabatları və digər əsas mənbələrdən götürülmüş məlumatlar əsasında son onilliyin statistik göstəriciləri araşdırılmış və Azərbaycan Respublikasında sosial inkişaf müxtəlif nümunələrlə tədqiq edilmişdir. Nəticə etibarilə, məqalə Azərbaycanda həyata keçirilən sosial siyasət tədbirlərin dayanıqlı inkişafın təmin olunmasında, sosial ədalətin gücləndirilməsində və əhalinin rifah səviyyəsinin yüksəldilməsində böyük rolu olduğunu əks etdirir.

## GİRİŞ

İnsanın, dövlət və cəmiyyətin həyat fəaliyyətinin sosial aspekti, insanın bioloji və sosial varlıq kimi mövcudluğu üçün zəruri olan yaşayış şəraitinin məcmusudur. Bu şəraitə insan sağlamlığı, mənzil, geyim, qida, gəlir, təhsil imkanları, tərbiyə və inkişaf daxildir. İnsan rifahı cəmiyyətin sosial inkişafının əsas meyarıdır (Mirzakarimova, 2023).

Müasir Azərbaycan Respublikasının son dövr tarixi sosial dövlət və sosial cəmiyyət qurmaq istiqamətində formalaşmağa davam edir. Azərbaycanda formalaşmaqda olan bu sosial dövlət, milli ənənələri özündə ehtiva edir və bu sosial dövlətin əsas ideyası Azərbaycançılıqdır (Məmmədova, 2017).

Son onillikdə Azərbaycan Respublikası üçün əsas səciyyəvi başlıqlar – qalib dövlət, beynəlxalq nüfuz, təhsilli cəmiyyət, böyük iqtisadi potensial və yüksələn rifah. Bu anlayışlar ölkənin son 10 illik sosial-iqtisadi inkişaf nailiyyətlərini xarakterizə edir.

## MÜZAKİRƏ

2015-ci il BMT-nin Dayanıqlı İnkişaf Sammiti həyata keçirilmişdir. Azərbaycanın da iştirak etdiyi bu sammitdə “2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik” qəbul edilmiş və 17 əsas inkişaf məqsədi qəbul edilmişdir. Bu məqsədlərin ümumi əsas prinsipi “heç kəsi kənarda qoymamaq” əsas götürülərək bütün ölkələr əməkdaşlıq şəraitində resurslardan bərabər şəkildə bölünməsinin təmini, insan hüquqlarına hər bir şəxsin əlçatanlığının təmini istiqamətində tədbirlər görülməsi qarşıya məqsəd qoyuldu. Bu məqsədlərdən irəli gələrək Azərbaycan Respublikası sosial siyasətdə dayanıqlılığı əsas götürmüş, əhalinin daha keyfiyyətli sosial xidmətlərlə təmin olunmasını, sosial xidmət müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsini, sosial xidmət sisteminin də müasir dövrün tələblərinə uyğun şəkildə təkmilləşdirilməsini əsas vəzifəsi etmişdir (Rəcəbli, 2012).

Azərbaycan Respublikası Prezidenti tərəfindən sosial-iqtisadi inkişafa dair uzunmüddətli dövlət proqramları: "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”, “2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”, “Azərbaycan Respublikası regionlarının 2019-2023-ci

illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı" və digər ardıcıl və əsas proqramlar dövlətin iqtisadi və sosial sahələrdə hökumət və qeyri-hökumət təşkilatları, dövlət və özəl sektorlarla birgə həyata keçirdiyi bir sıra layihələri özündə birləşdirir.

Ölkənin müxtəlif qurumları tərəfindən fərqli dövrlərdə sosial layihələr həyata keçirilmişdir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" layihəsi, "Əlilliyi olan qadınların və müharibə veteranlarının hüquqlarının və rifahının təmin edilməsi" layihəsi, "Azərbaycanda özünəməşğulluğa dəstək" layihəsi, "Kaşalata" layihəsi, "Tənha anaların sosial inkişafına dəstək" və bunun kimi başqa sosial layihələr həyata keçirilmişdir (Dövlət Məşğulluq Agentliyi, 2020).

Azərbaycan Respublikasında 2019-2024-cü illər ərzində 5 əsas sosial islahat paketinin icrası ilə əlaqədar qanun qəbul edilmişdir. 2019-ci il üzrə ilk paket, 2019-2020-ci il üzrə ikinci paket, 2021-2022-ci il üzrə üçüncü paket, 2023-cü il üzrə dördüncü paket, beşinci paket isə 2025-ci il üzrə qəbul edilmiş və həyata keçirilmişdir. Bu sosial paketlərdə ümumilikdə 4 milyon insana xidmət göstərilmiş və 8 milyard AZN əhatə etmişdir. Sosial paketlər minimum əməkhaqqı və pensiya artımını, İşsizlikdən Sığorta Fondunun büdcəsinin, Dövlət Sosial Müdafiə Fondunun büdcəsinin artırılması və digər məsələləri əhatə edir. Sosial paketlər çərçivəsində müharibədən sonrakı dövrdə şəhid ailələri və müharibə əlilləri, müharibə veteranları üçün 120 min sosial ödəniş təyin edilmişdir. 2026-cı ilədək ümumilikdə 16 min mənzil şəhid ailələri, müharibə əlilləri və həssas təbəqədən olan şəxslərə təqdim edilmişdir.

Azərbaycan Respublikasının təsdiqlənmiş büdcəsinə əsasən, sosial paketlərin başlandığı tarix olaraq 2019-cu ildə sosial müdafiə və sosial təminat sahəsinə ayrılmış vəsait 2018-ci ildəkindən təxminən 5.43% daha çox olmuşdur. Bu da, ölkədə aparılan islahatlara göstərilən diqqətin bariz nümunələrindəndir. 2015-2024-cü illər arası Azərbaycan ÜDM (cari qiymətlərlə, milyon milli valyuta vahidi ilə) artım göstəricisinə görə Ermənistan, Moldova, Türkmənistan, Belarusiya kimi MDB ölkələrini qabaqlamışdır (Interstate Statistical Committee of the CIS, 2026).

2017-ci ildə minimum pensiya 110 manatdan 2025-ci ildə 320 manata, 2017-ci ildə minimum aylıq əməkhaqqı 116 manatdan 2025-ci ildə 400 manatadək qaldırılmışdır. Tələbə təqaüdləri, hərbi qulluqçuların və xüsusi rütbəli şəxslərin aylıq vəzifə maaşlarında artımlar edilmişdir (Dövlət Statistika Komitəsi, 2017, 2025).

Azərbaycan Respublikası Prezidenti tərəfindən 2021-ci ildə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" qəbul edilmişdir. 2030-cu ilədək beş əsas milli prioritetdən üçü: dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət; rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı; işğaldan azad olunmuş ərazilərə böyük qayıdış əsas sosial prioritetlər olaraq inkluziv cəmiyyətin yaradılmasını, inkişafdan hər bir vətədaşın bəhrələnməsini, regionlar və paytaxt arasında tarazlı bölgünün formalaşdırılmasını, vətəndaşların təhsil və səhiyyə xidmətlərinə asan əlçatanlığının təminini, Qarabağ regionunun işğaldan azad edilməsindən sonra əhalinin dayanıqlı köçürülməsinin həyata keçirilməsini və digər əsas məqsədləri əks etdirir (Azərbaycan Respublikasının Prezidenti, 2021).

Ardıcıl addım olaraq digər bir islahat "2022-2028-ci illərdə Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair Milli Strategiya"nın qəbulu hesab edilir. Bu Milli Strategiyaların əsas məqsədi qüdrətli dövlətə nail olmaq və ədalətli cəmiyyət qurmaq üzərində cəmlənmişdir. Milli strategiyanın tərkibində son onillikdə ölkəmizin həm sosial, həm siyasi, həm də iqtisadi sahədə əldə etdiyi nailiyyətlər, qarşıya qoyulan əsas məqsədlər və strategiyalar, gələcək onillikdə dünya ölkələri və Azərbaycan üçün qlobal meyllər, çağırışlar və imkanlar öz əksini tapır (E-qanun.az, 2021).

Azərbaycan Respublikasında sosial siyasətin effektivliyinin təmini istiqamətində həyata keçirilən əsas islahatlardan biri də ASAN xidmət və DOST agentliyi kimi institusional mexanizmlərin yaradılmasıdır. Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən 2012-ci ildə yaradılan ASAN xidmət mərkəzləri əhaliyə vahid və əlaqələndirilmiş formada xidmətlərin göstərilməsində böyük rol oynayır. Mərkəzlərin göstərdiyi xidmət sayəsində son onillikdə şəffaflığın artırılmasına nail olunmuş, korrupsiyaya qarşı mübarizədə böyük irəliləyişlər nail olunmuş, data əsaslı idarəetmə modelinin inkişaf etdirilməsi və onun tətbiqi sahəsində irəliləyişlər əldə edilmiş, əlavə xərclərin və

vaxt itkisinin azalması səbəbindən vətəndaş məmnuniyyəti artmışdır (Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, 2021).

Ölkədə 14 istiqamət üzrə DOST mərkəzləri fəaliyyət göstərməkdədir. Bu mərkəzlər vətəndaşlara əlilliyi olan şəxslərin reabilitasiya vasitələri ilə təmin edilməsi, əmək yarmarkaları vasitəsilə məşğulluq xidmətləri göstərilməsi, vətəndaşların peşə hazırlığına cəlb olunması, birdəfəlik müavinətlərin, ünvanlı dövlət sosial yardımının, yaşa görə əmək pensiyalarının təyin edilməsi, aztəminatlı ailələrə sosial yardımların göstərilməsi və s. kimi çoxyönümlü xidmətlər göstərir (DOST Agentliyi, 2025).

## NƏTİCƏ

Ümumilikdə, son on illikdə Azərbaycan Respublikası həm iqtisadi, həm də siyasi inkişafa nail olmaq üçün paralel işlər aparılmaqdadır. Ölkə vətəndaşlarının rifah səviyyəsinin artırılması, sosial dəstəklərin göstərilməsi, vətəndaş məmnuniyyəti fəaliyyət göstərən bütün dövlət və özəl qurumların əsas prioritetinə çevrilmişdir. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra hələ bərpa dövründə əsas gücünü iqtisadiyyatı dirçəltmək, sahibkarlığın inkişafına təkan verməyə yönəltmişdisə, bu sahələrdə qarşıya qoyulmuş müəyyən məqsədlərə çatdıqdan sonra əsas məqsəd cəmiyyətin sosialyönümlü inkişafına nail olmaq olmuşdur.

## ƏDƏBİYYATLAR


Azərbaycan Respublikasının Dövlət Məşğulluq Agentliyi (2020). Sosial layihə - 1. https://dma.gov.az/layiheler/sosial-layiheler/sosial-layihe-1

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2017). Hesabat. Bakı, Azərbaycan.

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. (2025). Hesabat. Bakı, Azərbaycan.

Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi. (2021). Strateji plan (2022-2024). Bakı, Azərbaycan.

Azərbaycan Respublikasının Prezidenti. (2021, 2 fevral). “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. https://president.az/az/articles/view/50474

DOST Agentliyi. (2025, oktyabr). Bülleten (No. 19).

E-Qanun. (2021). “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. https://e-qanun.az/framework/50013

Interstate Statistical Committee of the Commonwealth of Independent States. (2026). Gross domestic product (current prices; millions of national currency units) statistics.

Məmmədova, S. (2017). Azərbaycanda sosial dövlətin formalaşmasının nəzəri-ideoloji əsasları. Dövlət və Din, 53(6), noyabr-dekabr.

Mirzakarimova, M. M. (2023). Some issues of the development of the social state in the CIS countries. JournalNX, 9(4). https://doi.org/10.5281/zenodo.7803657

Rəcəbli, H. (2012). Azərbaycan Respublikasının sosial müdafiə sistemi: Ali məktəblər üçün dərs vəsaiti. Bakı, Azərbaycan.


## SUMMARY

## MAIN SOCIAL REFORMS IN THE REPUBLIC OF AZERBAIJAN OVER THE LAST DECADE


**Ulviya Jumshudlu**
**Azerbaijan Tourism and Management University, Baku, Azerbaijan**



After gaining independence, the Republic of Azerbaijan carried out significant reforms to achieve development in the economic and social spheres. Reforms implemented in the fields of education, healthcare, social security, and social assistance have been further strengthened, and the

activities of social institutions have been reconsidered with the aim of improving the social welfare of the population. Due to the relevance of the topic, conducting this research is important, and the main objective of the article is a detailed study of the reforms that have taken place in the field of social development over the last decade. It is not coincidental that comparisons based on statistical indicators of social development prove that Azerbaijan ranks among the leading countries of the CIS. The main reasons for this include various social reforms, state programs, as well as existing and newly established institutions and their activities. The article examines the statistical indicators of the last decade based on reports from various official institutions and other key sources, and studies social development in the Republic of Azerbaijan through different examples. As a result, the article reflects that the social policy measures implemented in Azerbaijan play a significant role in ensuring sustainable development, strengthening social justice, and improving the welfare of the population.

***Keywords:*** *social, security, development, reform, society, welfare*

## РЕЗЮМЕ

## ОСНОВНЫЕ СОЦИАЛЬНЫЕ РЕФОРМЫ В АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКЕ ЗА ПОСЛЕДНЕЕ ДЕСЯТИЛЕТИЕ

**Ульвия Джумшудлу**
**Азербайджанский университет туризма и менеджмента, Баку, Азербайджан**

После обретения независимости Азербайджанская Республика провела значительные реформы для достижения развития в экономической и социальной сферах. Реформы в области образования, здравоохранения, социального обеспечения и социальной помощи были дополнительно усилены, а деятельность социальных институтов пересмотрена с целью повышения социального благосостояния населения. В связи с актуальностью темы проведение данного исследования имеет важное значение, а основной целью статьи является подробное изучение реформ, произошедших в сфере социального развития за последнее десятилетие. Не случайно, что сравнительный анализ, проведённый на основе статистических показателей социального развития, доказывает, что Азербайджан занимает ведущие позиции среди стран СНГ. Основными причинами этого являются различные социальные реформы, государственные программы, а также существующие и вновь созданные учреждения и их деятельность. В статье на основе отчетов различных официальных органов и других ключевых источников исследованы статистические показатели последнего десятилетия и рассмотрено социальное развитие Азербайджанской Республики на различных примерах. В результате статья отражает, что реализуемые в Азербайджане меры социальной политики играют важную роль в обеспечении устойчивого развития, укреплении социальной справедливости и повышении уровня благосостояния населения.

***Ключевые слова:*** *социальный, обеспечение, развитие, реформа, общество, благосостояние*